**Hüseyn Elçin oğlu DAŞPOLADOV**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

# AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATININ MÖVCUD VƏZİYYƏTİ VƏ TƏHLİLİ

**Xülasə**

*Tədqiqatın məqsədi* Azərbaycanda kənd təsərrüfatının mövcud vəziyyətinin araşdırılmasıdır. Kənd təsərrüfatının inkişaf problemləri açıqlanmış və ümumiləşdirilmişdir. Müasir dövrdə ölkəmizin kənd təsərrüfatı sahələrinin yüksək texnologiyalar əsasında inkiaşf etdirilməsinin vacibliyi əsaslandırılmışdır. Kənd təsərrüfatının müxtəlif sahələrinin imkanları baxılmış və onlardan səmərəli istifadə edilməsinin vacibliyi bildirilmişdir. Yeni çağırışlar nəzərə alınmaqla, Azərbaycanda kənd təsərrüfatının inkişafının intensivləşdirilməsi üzrə təkliflər verilmişdir.

*Tədqiqatın metodu* kimi təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Bundan əlavə, müxtəlif tədqiqatçıların metodları və beynəlxalq təcrübədən irəli gələn məsələlər nəzərə alınmışdır.

*Tədqiqatın nəticələri* – baxımından, alınmış elmi-praktiki nəticələrdən Azərbaycanda kənd təsərrüfatının inkişafının sürətləndirilməsi üzrə tədbirlərin və mexanizmlərin hazırlanmasında, islahatların aparılmasında istifadə edilməsi imkanları vardır.

**Açar sözlər**: Azərbaycan, kənd təsərrüfatı, kənd təsərrüfatının sahələri, kənd təsərrüfatının vəziyyəti, kənd təsərrüfatının təhlili, kənd təsərrüfatının inkişaf problemləri, kənd təsərrüfatının inkişaf perspektivləri.

**UOT:** 330.33
**JEL:** Q13;Q18; M21
**DOI:** https://doi.org/ 10.54414/ UVML9347

## Giriş

Hazırda Azərbaycanın kənd təsərrüfatı sektoru ölkənin iqtisadiyyatında önəmli yer tutur və son illərdə əhəmiyyətli inkişaf mərhələlərini keçmişdir. 1990-cı illərin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı sektoru iqtisadi böhran və siyasi qeyri-sabitlik səbəbindən çətin dövr keçirdi. Sovetlər Birliyinin dağılmasından sonra kənd təsərrüfatında ciddi dəyişikliklər baş vermiş, özəl təsərrüfatlar formalaşmış və yeni idarəetmə mexanizmləri tətbiq olunmuşdur. 1993-cü ildən sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə reallaşdırılan müxtəlif istiqamətli iqtisadi islahatlar, o cümlədən torpaq islahatı, kənd təsərrüfatının inkişafına təkan verdi. Torpaqların vətəndaşlara verilməsi, vergi güzəştləri və bazar iqtisadiyyatına keçid bu sahənin inkişafını sürətləndirdi. Kənd təsərrüfatında bazar münasibətlərinin inkişafı ilə paralel olaraq, bu sahədə bazar infrastrukturlarının təşəkkülü prosesi də güclənir. Bu proses çərçivəsində sərbəst bazar strukturları ilə maliyyə sistemi, bank sektoru, dövlət büdcəsi və digər maliyyə institutları arasında iqtisadi əlaqələr daha da möhkəmlənir. Maddi-texniki resurs bazarlarının təşəkkülü daha da sürətlənir və istehsal amillərinə olan tələbat artmaqda davam edir. Belə şəraitdə yalnız sahibkarların şəxsi vəsaitləri deyil, habelə büdcə mənbələri və maliyyə institutlarının kredit resursları da kənd təsərrüfatı ilə bağlı sahələrin inkişafı üçün səmərəli şəkildə istifadə olunmalıdır. Çünki yeni formalaşan istehsal subyektlərinin təsərrüfat fəaliyyətindən əldə etdiyi məhdud mənfəət onların fəaliyyətini genişləndirmək və geniş təkrar istehsalı təmin etmək baxımından kifayət etmir [1, s.17].

Kənd təsərrüfatının inkişafı ölkənin iqtisadi təhlükəsizliyi və milli ərzaq təhlükəsizliyi baxımından strateji önəm daşıyır. İEÖ-lərin iqtisadi rifahına mühüm töhfə verən kənd təsərrüfatının inkişafı ilə bağlı çoxsaylı

layihələrin reallaşdırılması və proqramların qəbulu, kənd yerlərinin inkişafına xüsusi diqqət yetirilməsi bu sahənin nə qədər böyük önəm daşıdığını göstərir. Kənd təsərrüfatının inkişafı təkcə məhsul istehsalı demək deyil, habelə yeyinti və yüngül sənayenin inkişafına təkan verir. Digər tərəfdən, istehsal sahələrinin yüksək texnologiyalar əsasında təkmilləşdirilməsi kənd təsərrüfatı məhsullarına tələbatın artması ilə yanaşı, sənayenin inkişafına təkan verir, yəni sənaye ilə kənd təsərrüfatının inkişafı ümumi inkişafda bir-birini tamamlayır [2, s.141]. Azərbaycanın müxtəlif iqlim zonaları kənd təsərrüfatı üçün geniş imkanlar yaradır. Aran, dağlıq və subtropik zonalarda fərqli növ məhsullar yetişdirilir. Ölkənin ümumi torpaq sahəsinin 40%-dən çoxu kənd təsərrüfatına yararlıdır. Azərbaycan kənd təsərrüfatı ölkə ÜDM-də təxminən 5-6% paya malikdir. Bu sektor məşğulluqda daha yüksək göstəriciyə malikdir, belə ki, təxminən 35-40% əhalinin məşğulluğu kənd təsərrüfatı ilə əlaqədardır. Azərbaycanın kənd təsərrüfatı sektoru əsasən taxılçılıq, pambıqçılıq, üzümçülük və heyvandarlıq sahələrinə əsaslanır. Kənd təsərrüfatı məhsulları arasında taxıl, tərəvəz, meyvə, üzüm, pambıq və heyvandarlıq məhsulları üstünlük təşkil edir.

## Azərbaycanın kənd təsərrüfatının inkişaf proseslərinin təhlili

Son illərdə ölkədə kənd təsərrüfatının modernləşdirilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və idxaldan asılılığın azaldılması istiqamətində reallaşdırılan tədbirlər taxılçılığın inkişafına önəmli təsir göstərmişdir. Buğda və arpa əsas taxıl növləridir ki, son illərdə Azərbaycanda daxili istehlak tələbatını qarşılamaq məqsədilə onların istehsalında artım müşahidə olunur. Azərbaycanın taxılçılıq sektoru hazırda strateji əhəmiyyətə malik olmaqla yanaşı, inkişaf üçün böyük potensiala sahibdir. Əkin sahələrinin böyük hissəsi Mərkəzi Aran və Gəncə-Qazax bölgələrində cəmləşmişdir, habelə, Şirvan, Mil-Muğan və Qarabağ bölgələrində də taxılçılıq geniş yayılmışdır.

Son illər Azərbaycanda ərzaq təhlükəsizliyində önəmli rol oynayan və taxilçılıq istehsalının əsas məhsulu olan buğda istehsalının mövcud vəziyyətini təhlil etmək üçün şəkil 1-ə diqqət yetirək.




**Şəkil 1. 2015-2024-cü illərdə Azərbaycanda buğda istehsalının həcmi (ARDSK. https://www.stat.gov.az/source/agriculture/).**

Şəkil 1-dən aydın görünür ki, ölkəmizdə buğda istehsalında sabit artım müşahidə olunmur. Belə ki, 2023-cü ildə buğda istehsalı əvvəlki ilə görə 97,7 min ton və ya 5,6% çox olmuşdur. Lakin 2024-cü ildə bu göstərici 2023-cü ilə görə 148,8 min ton və ya 8,8% azalmışdır. Halbuki həmin ildə əkin sahələrinin həcmi 0,6% artsa da, bu, istehsalın yüksəlməsinə gətirib çıxarmamış, əksinə, azalma ilə nəticələnmişdir. Habelə, məhsuldarlıq göstəricisi də geriləyərək 33,8 sentnerdən 30,9 sentnerə enmiş, yəni 2,9 sentner azalmışdır.

Əkin sahələrinin məhsuldarlığının artırılması, elmi yanaşmaların geniş tətbiqi, müasir texnologiyaların istifadəsi və fermerlərin maarifləndirilməsi istiqamətində görüləcək işlər bu sahənin dayanıqlı inkişafını təmin edə bilər. Dövlət dəstəyi və özəl sektorun fəallığı birləşdirilərsə, Azərbaycan ərzaq təhlükəsizliyini möhkəmləndirə, regionda taxılçılıq üzrə aparıcı

ölkəyə çevrilə bilər. Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsini hədəfləyən və 19 iyul 2022-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncam, taxılçılığın inkişafında mühüm əhəmiyyətə malikdir. Bu sənəd, son illərdə ölkənin kənd təsərrüfatı sahəsində yaranmış imkanlara, xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanaraq, taxılçılıq təsərrüfatlarının qurulmasına və ərzaqlıq buğda ilə təminat səviyyəsinin artırılması istiqamətində yeni strateji məqsədlərin müəyyənləşdirilməsinə şərait yaradır [3].

Meyvə və tərəvəzçiliyin inkişafı daxili bazarın təminatı və ixrac potensialının artırılması baxımından strateji önəm daşıyır. Azərbaycanın müxtəlif bölgələri iqlim və torpaq xüsusiyyətlərinə görə müxtəlif meyvə və tərəvəz növlərinin becərilməsi üçün əlverişlidir. Tərəvəzçilik və meyvəçilik əsasən bölgələrdə, məsələn, Mərkəzi Aran, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala kimi yerlərdə inkişaf edir. Son illərdə dövlət dəstəyi və investisiya təşviqi nəticəsində meyvə və tərəvəz məhsullarının istehsalında artım müşahidə olunur.




**Şəkil 2. 2015-2024-cü illərdə Azərbaycanda tərəvəz istehsalının həcmi (ARDSK. https://www.stat.gov.az/source/agriculture/).**

DSK-nın məlumatlarına əsasən tədqiq etdiyimiz dövrlər ərzində tərəvəz istehsalının həcmində davamlı artım müşahidə olunub. Məsələn 2024-cü ildə Azərbaycanda 1847,5 min ton tərəvəz istehsal olunub ki, bu da 2015-ci ilə görə 572,2 min ton və ya 44,9%, 2020-ci ilə görə 108,6 min ton və ya 6,2%, 2023-ci ilə görə isə 21,9 min ton və ya 1,2% çoxdur. Tərəvəz istehsalında əsas yeri, pomidor, baş soğan, xiyar və kələm tutur.

Azərbaycanın meyvə-tərəvəz ixracı da artan xətt üzrə inkişaf edir. Ən çox ixrac olunan məhsullar pomidor, alma, nar, fındıq və digərləridir. Əsas ixrac bazarları Rusiya, Qazaxıstan, Gürcüstan, Ukrayna, BƏƏ və bəzi Avropa ölkələridir. Azərbaycanda pambıqçılıq sahəsi zəngin tarixi ənənələrə və böyük potensiala malikdir. Son illər bu sahədə ən yüksək məhsuldarlıq göstəriciləri Ağcabədi, Bərdə, Beyləqan, Saatlı və Salyan rayonlarında qeydə alınmışdır. Son illərdə dövlətin reallaşdırdığı islahatlar və dəstək tədbirləri sayəsində bu sahənin inkişafı sürətləndirilməsi istiqamətində tədbirlər genişləndirilmişdir. Bu tədbirlər arasında fermerlərə verilən məhsul subsidiyalarının artırılması, texnika və aqrotexniki xidmətlərin təmin edilməsi, suvarma sistemlərinin modernləşdirilməsi və sığorta mexanizmlərinin tətbiqi yer alır. Buna baxmayaraq, bu sahə istehsalında hələ də sürətli artım müşahidə edilməyib ki, bunu da şəkil 3 məlumatlarından aydın görə bilərik.




**Şəkil 3. 2015-2024-cü illərdə Azərbaycanda pambıq istehsalının həcmi (ARDSK. https://www.stat.gov.az/source/agriculture/).**

2022-ci ildə Azərbaycanda 322,4 min ton pambıq yığılıb ki, bu, əvvəlki ilə görə 35,4 min ton və ya 12,3% artım deməkdir. Orta məhsuldarlıq hər hektardan 30,9 sentner təşkil edib. 2023-cü ildə pambıq istehsalı 276,3 min tona düşüb ki, bu da əvvəlki ilə nisbətən 46,1 min ton və ya 16,7% azalma deməkdir. 2024-cü ildə isə pambıq istehsalı yenidən artaraq 307,0 min ton olub ki, bu, 2023-cü ilə görə 30,7 min ton və ya 11,1% artım deməkdir. Əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığın qismən artması bu artımda rol oynayıb.

Azərbaycanda pambıqçılıq sahəsinin inkişaf etdirilməsi məqsədilə 13 iyul 2017-ci il tarixində ölkə Prezidenti tərəfindən xüsusi Dövlət Proqramı təsdiqlənmişdir. Bu proqramın əsas məqsədləri pambıq məhsullarına olan daxili tələbatın qarşılanması, pambıqçılıq emalı müəssisələrinin xammalla davamlı şəkildə təmin olunması, pambıq emalı sənayesinin gücləndirilməsi, pambıq ixracının artırılması və bu sahədə kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsidir. Bu məqsədlərə çatmaq üçün pambıqçılıq sahəsinə dövlət dəstəyinin genişləndirilməsi və inkişaf proseslərinin daha da stimullaşdırılması əsas prioritetlər sırasına daxil edilmişdir [4]. Üzümçülük, Azərbaycanın kənd təsərrüfatı sektorunda önəmli yer tutur və bu sahənin inkişafı üçün dövlət tərəfindən bir sıra dəstəklər mövcuddur. Lakin, bu sahənin daha da inkişaf etməsi üçün müasir suvarma sistemlərinin tətbiqi və texnologiyanın inkişaf etdirilməsi vacibdir. Bu addımlar atıldıqca, üzümçülük sahəsinin Azərbaycanın iqtisadiyyatında tutduğu mövqe daha da möhkəmlənəcəkdir.

DSK-nın məlumatlarından üzümçülük istehsalında artım müşahidə edilsə də, sonuncu 2024-cü ildə özündən əvvəlki ilə görə 19,4 min ton və ya 9,4% azalma müşahidə olunub (şəkil 4).




**Şəkil 4. 2015-2024-cü illərdə Azərbaycanda üzüm istehsalının həcmi (ARDSK. https://www.stat.gov.az/source/agriculture/).**

Bəzi rayonlarda istehsalda artım olsa da, ümumi göstəricilər azalma istiqamətindədir. Ən çox üzüm istehsal olunan bölgələrdən biri Qazax-Tovuz bölgəsidir ki, bu bölgədə 2024-cü ildə 80

min 675,2 ton üzüm istehsal edilib, bu da 2023-cü ilə görə 3,7 min ton çoxdur. Tovuzda 30,5, Şəmkirdə 38,3 və Qazax rayonunda 3,8 min ton üzüm yığılıb. Digər iqtisadi rayonlarda da, o cümlədən, Dağlıq Şirvanda 26,1, Lənkəran-Astarada 18,3 və Gəncə-Daşkəsəndə 15,6 min ton həcmində üzüm istehsal olunub. Kənd təsərrüfatının əsas sahələrindən biri də heyvandarlıqdır ki, bu sahə ərzaq təhlükəsizliyinin təminində və kənd əhalisinin sosial rifahının yüksəldilməsində önəmli rol oynayır. Müasir dövrdə isə bu sahənin inkişaf etdirilməsi dövlətin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib.

### Müasir dövrdə Azərbaycanın kənd təsərrüfatının inkişaf istiqamətləri

Azərbaycan hökuməti heyvandarlığın inkişafını stimullaşdırmaq məqsədilə bir sıra tədbirlər reallaşdırılır. Dövlət kənd təsərrüfatı məhsullarının istehsalçılarına subsidiyalar təqdim edir. Heyvandarlıqla məşğul olan sahibkarlara güzəştli kreditlər, yem təminatına dəstək və vergi güzəştləri verilir. Yeni heyvandarlıq komplekslərinin yaradılması, baytarlıq xidmətlərinin gücləndirilməsi, yem emalı müəssisələrinin qurulması həmin sahənin inkişafın əsas komponentlərindəndir.

Ümumilikdə, son illər Azərbaycanın kənd təsərrüfatı sektoru bəzi sahələrdə artım göstərsə də, digər sahələrdə geriləmə müşahidə olunmuşdur. Bu vəziyyət, sektorda struktur islahatlarının və modernizasiyanın zəruriliyini göstərir. Son illərdə bu sahələrdə məhsuldarlığın artırılması məqsədilə müasir texnologiyaların tətbiqi və aqrar islahatlar reallaşdırılmışdır. Kənd təsərrüfatının inkişafı üçün müasir infrastruktur və texnologiyaların tətbiqi vacibdir. Suvarma sistemlərinin modernləşdirilməsi, kənd yollarının təmiri və logistika infrastrukturunun gücləndirilməsi bu sahədə atılan mühüm addımlardır.

Son dövrlərdə Azərbaycanda müasir infrastruktur və inkişaf etmiş logistika sistemi ilə təchiz olunmuş ASK-ların yaradılması istiqamətində genişmiqyaslı işlər görülməkdədir. Bu məqsədlə ölkənin əsas kənd təsərrüfatı bölgə və rayonlarında aqroparkların salınmasına start verilmişdir. Bu aqroparkların başlıca funksiyası müasir texnologiyaların tətbiqi ilə kənd təsərrüfatı məhsullarının istehsalını təşkil etmək, habelə bu məhsulların effektiv şəkildə daşınması, saxlanması və satışını təmin etməkdən ibarətdir [5, s.27]. Azərbaycan, dayanıqlı inkişaf prinsiplərinə uyğun olaraq kənd təsərrüfatı sektorunda ekoloji təmiz texnologiyaların tətbiqini təşviq edir. BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlıq çərçivəsində "yaşıl artım" və dayanıqlı inkişaf məqsədilə layihələr reallaşdırılır.

Azərbaycanda kənd təsərrüfatının tərəqqisi naminə müxtəlif sərəncam və fərmanlar, habelə normativ-hüquqi sənədlər qəbul edilmişdir. Bu sənədlər vasitəsilə kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarlarının tənzimlənməsi istiqamətində tədbirlər reallaşdırılır. Məqsəd ölkənin ərzağa olan tələbatını ödəmək, bu məhsulların ÜDM-də xüsusi çəkisini artırmaq və onların beynəlxalq bazarda rəqabətə davamlılığını gücləndirməkdir.

Azərbaycanın kənd təsərrüfatı sektoru son illərdə əhəmiyyətli inkişaf mərhələlərini keçmişdir. İslahatlar, müasir texnologiyaların tətbiqi və dayanıqlı inkişaf prinsiplərinə uyğun yanaşmalar bu sahənin gələcəkdə daha da inkişaf etməsinə zəmin yaradır. Lakin, iqlim dəyişiklikləri, kadr potensialı və idxaldan asılılıq kimi çağırışların həlli üçün davamlı tədbirlərin görülməsi vacibdir. Ümumiyyətlə, Azərbaycanın kənd təsərrüfatı sektoru, dövlətin dəstəyi, infrastruktur layihələri və beynəlxalq əməkdaşlıq sayəsində inkişaf edir. Bu sahənin inkişafı, ölkənin iqtisadiyyatının şaxələndirilməsinə və kənd əhalisinin rifahının yaxşılaşdırılmasına mühüm töhfə verir. Azərbaycanın kənd təsərrüfatı böyük potensiala malik olsa da, bu potensialın tam reallaşdırılması üçün qarşıda duran problemlər sistemli və kompleks şəkildə həll olunmalıdır. Həmin problemlərin və onların həlli yollarının bəzilərinə diqqət yetirək.

Kənd təsərrüfatı sahəsində mövcud olan boşluqların aradan qaldırılması məqsədilə məhsul bazalarının, paylama mərkəzlərinin, satış nöqtələrinin, soyuducu anbarların və qablaşdırma müəssisələrinin qurulması təşviq edilməlidir. Bu istiqamətdə reallaşdırılan dövlət proqramlarının effektiv icrası böyük önəm daşıyır. Sözügedən proqramlarda kənd təsərrüfatı məhsullarının istehsalçılarına mütəmadi olaraq qiymətlər, idxal, topdan və pərakəndə satış bazarları, eləcə

də digər vacib məlumatlar barədə informasiya verəcək bir sistemin formalaşdırılması xüsusi yer tutur. İqlim dəyişiklikləri və təbii fəlakətlər kənd təsərrüfatı məhsuldarlığına mənfi təsir göstərir. Bu problemlərin həlli üçün iqlimə davamlı kənd təsərrüfatı metodlarının tətbiqi və təbii fəlakətlərə qarşı hazırlıq tədbirlərinin görülməsi vacibdir. Azərbaycanın bəzi kənd təsərrüfatı məhsullarında idxaldan asılılığı yüksəkdir. Əhalinin sağlamlığının qorunması baxımından qida təhlükəsizliyi əsas prioritetlərdən biri hesab olunur. Bu problemin həlli məqsədilə yerli istehsalın artırılması və daxili bazarın gücləndirilməsi istiqamətində tədbirlər görülməlidir. Azərbaycan Respublikası istehlakçılara keyfiyyətli məhsulların çatdırılmasını təmin etmək və qida təhlükəsizliyi standartlarını yüksəltmək məqsədilə müvafiq nəzarət mexanizmləri və qanunvericilik tədbirləri reallaşdırır [6, s.75].

Azərbaycanın kənd təsərrüfatı əsasən suvarmaya əsaslandığı üçün su ehtiyatlarının səmərəli idarə olunması həyati önəm daşıyır. Hazırda ölkənin irriqasiya sistemlərinin vəziyyəti lazımi səviyyədə deyildir, kanallar boyunca su itkisinin həcmi çoxdur. İqlim dəyişiklikləri səbəbilə su ehtiyatlarında azalma müşahidə olunur. Kənd təsərrüfatında müasir texnologiyaların, xüsusən aqrar texnikaların istifadəsi aşağı səviyyədədir. Aqrotexniki tədbirlər gecikdirilir və məhsuldarlıq aşağı düşür, rəqəmsal kənd təsərrüfatı hələ geniş tətbiq olunmur. Müasir kənd təsərrüfatında yüksək ixtisaslı kadrların rolu böyükdür. Kənd təsərrüfatı sahəsində mütəxəssis çatışmazlığı mövcuddur.

Azərbaycanda kənd təsərrüfatı sektorunun və əlaqədar sahələrin inkişafını dəstəkləmək üçün, demək olar ki, bütün sivil ölkələrdə olduğu kimi, dövlət yardımı vacibdir. KOB subyektlərinin maliyyə imkanlarının məhdudluğu nəzərə alınaraq, kənd təsərrüfatına ayrılan büdcə vəsaitlərinin effektiv istifadə olunması dövlətin bu sahədə siyasətinin əsas prioritetinə çevrilir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin birbaşa dəstəklənməsi ilə yanaşı, emal sahələrinin inkişafı da həmin sahədə KOB-un inkişafını və maliyyə resurslarının genişlənməsini təmin edir [7, s.53].

Torpaq islahatları nəticəsində əhalinin böyük hissəsinə pay torpaqları verilsə də, onların çoxu səmərəsiz istifadə olunur, torpaq bazarı effektiv fəaliyyət göstərmir, müasir torpaq idarəçiliyi sistemləri lazımi səviyyədə tətbiq olunmur. Kiçik və orta kənd təsərrüfatı subyektlərinin m**aliyyə resurslarına çıxışı məhduddur. Belə ki, k**içik və orta fermerlər kredit almaqda çətinlik çəkirlər, banklar kənd təsərrüfatına kredit verməkdə maraqlı deyillər, subsidiya və dəstək mexanizmləri demək olar ki, qeyri-şəffaf və qeyri-bərabər şəkildə tətbiq olunur. Bəzi hallarda fermerlər öz məhsullarını bazara çıxarmaqda çətinlik çəkirlər, müxtəlif təbiət hadisələri nəticəsində bir çox hallarda məhsul itkiləri, xüsusən tərəvəz və meyvələrdə 20-30%-ə çatır. Kənd təsərrüfatı məhsullarının saxlanması və emalı üçün infrastruktur zəif inkişaf edib.

**Nəticə**

Yuxarıda qeyd etdiyimiz bu və ya digər problemlərinm həlli məqsədilə aşağıdakı istiqamətlərdə tədbirlərin görülməsi məqsədəuyğundur:

– **Torpaq siyasətinin təkmilləşdirilməsi. Bu məqsədlə t**orpaq sahələrinin konsolidasiyası təşviq olunmalı, elektron torpaq kadastr sistemləri yaradılmalı, təkmilləşdirilməli və ictimaiyyətə açıq olmalı, torpaq istifadəsində şəffaflıq və səmərəlilik təmin olunmalıdır.

– İnnovativ **texnologiyaların və rəqəmsallaşmanın tətbiq edilməsi. Bu məqsədlə f**ermerlər üçün texnika parkları qurulmalı və lizinq mexanizmləri genişləndirilməli, aqrar sahədə startaplar və "smart farming" texnologiyaları dəstəklənməli, kənd təsərrüfatında rəqəmsal məlumat bazaları və GPS izləmə sistemləri tətbiq olunmalıdır.

– **Suvarma sistemlərinin yenilənməsi və su idarəçiliyinin təkmilləşdirilməsi. Bu məqsədlə** suvarma kanalları müasir texnologiyalarla təchiz olunmalı və sızma itkiləri minimuma endirilməli, damcı ilə suvarma və digər qənaətcil üsullar geniş tətbiq olunmalı, su istifadəsinə dair vahid elektron idarəetmə sistemi yaradılmalıdır.

– Azərbaycanda kənd təsərrüfatı sahəsində əsas problem kadr çatışmazlığı və onların peşəkar hazırlığı ilə bağlıdır. Kənd təsərrüfatının müasir inkişafı elmin və yeni texnikanın ən son

nailiyyətlərinə əsaslanır ki, bu da kadrların müəyyən təsnifatını tələb edir və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Yusifov, Ş.A. Aqrar sahədə kiçik və orta sahibkarlığın inkişafında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş diss. avtoreferatı./ Bakı, 2017. – 30 s.
2. Юсифова, С.С. Проблемы развития аграрного предпринимательства в Азербайджане / С.С. Юсифова // Экономика и управление: проблемы, решения. – 2022. – Т. 1, № 8(128). – с. 140-146.
3. Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 19 iyul 2022 // [Elektron resurs]/ URL: https://e-qanun.az/framework/49983.
4. Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, 13 lyul 2017.
5. Əliyev, Ş.T. Azərbaycanda kənd təsərrüfatının və aqrar sənaye kompleksinin inkişafının strateji aspektləri. İpək Yolu, – 2018. №2, – s.23-32.
6. Abbaszadə, F.V. Azərbaycan Respublikasında qida təminatının inkişafının xüsusiyyətləri və meyilləri. Audit – 2024. 3 (45), – s.73-82.
7. Yusufova, Ş.A. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi istiqamətləri. Kənd təsərrüfatının iqtisadiyyatı, – 2021. № 4 (38), – s.48-54.

**Дашполадов Гусейн Эльчин оглы**
Докторант Азербайджанского университета Кооперации,

# ТЕКУЩЕЕ СОСТОЯНИЕ И АНАЛИЗ СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНА

## Резюме

*Целью исследования* является изучение современного состояния сельского хозяйства в Азербайджане. Обоснованы и обобщены проблемы развития сельского хозяйства. Обоснована важность развития аграрных отраслей нашей страны на основе высоких технологий в современную эпоху. Рассмотрены возможности различных отраслей сельского хозяйства и отмечена важность их эффективного использования. Даны предложении по интенсификации развития сельского хозяйства в Азербайджане с учетом новых вызовов,

*Методом исследования являлись* – методы анализа, синтеза, сравнения и обобщения. Кроме того, учтены методы различных исследователей и вопросы, вытекающие из международного опыта.

*Результаты исследования* – получены научные и практические результаты, которые могут быть использованы при разработке мер и механизмов ускоренного развития сельского хозяйства в Азербайджане, а также при проведении реформ.

**Ключевые слова:** Азербайджан, сельское хозяйство, аграрные отрасли, ситуация в сельском хозяйстве, анализ сельского хозяйства, проблемы развития сельского хозяйства, перспективы развития сельского хозяйства.

**Huseyn Elchin DASHPOLADOV**
Doctoral student at Azerbaijan Cooperation University,

## CURRENT STATUS AND ANALYSIS OF AZERBAIJAN'S AGRICULTURE

**Summary**

*The purpose of this study* – is to examine the current state of agriculture in Azerbaijan. The challenges facing agricultural development are substantiated and summarized. The importance of developing our country's agricultural sectors using high technology in the modern era is substantiated. The potential of various agricultural sectors is examined, and the importance of their effective use is emphasized. Considering new challenges, proposals for intensifying agricultural development in Azerbaijan are put forward.

*The research methods* – utilized include analysis, synthesis, comparison, and generalization. Furthermore, the methods of various researchers and issues arising from international experience are considered.

*Results of the study* – scientific and practical results that can be used in developing measures and mechanisms for accelerated agricultural development in Azerbaijan, as well as in implementing reforms.

***Key words:*** Azerbaijan, agriculture, agricultural sectors, agricultural situation, agricultural analysis, agricultural development problems, agricultural development prospects.